# Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin IV konfransı

## Çıxışlar

### Fəttah Heydərov,
### Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri.



**Əziz gənclər!**

Mən də bu gün gözəl məclisdə iştirak etməyimdən qürur duyuram. Fərəhli haldır ki, sizin konfransınız bu gözəl məkanda keçirilir və burada ölkəmizdə gedən cahanşümul inkişaf, bu inkişafda sizlərin-gənclərin rolu müzakirə olunur.

Bu gün biz dünyada tanınmış, hər şey insan naminə, hər şey insan üçün olan bir dövlətdə yaşayırıq. Bu mənim ürəyimi qürur hissi ilə doldurur.

Mən yaxşı xatırlayıram: ulu öndər Heydər Əliyev Azərbaycanda ilk dəfə, hələ sovetlər dövründə hakimiyyətə gələrkən respublikamızı 15 respublika arasında ən qabaqcıl yerə çıxartdı. Heydər Əliyev Azərbaycanda olmayanda Sovetlər İttifaqı dağılarkən ən ağır zərbə Azərbaycana dəydi. Respublikamızın ərazisinin 20 faizi işğal olundu. Zavod və fabriklər, min hektarlarla üzüm bağları dağıdıldı. Daxili çəkişmələr, hərc-mərclik Azərbaycanı ağuşuna aldı.

Siz gənclərin çoxu həmin dövrlər həyatda yox idi, ancaq, Sizin valideynləriniz həmin ağır günləri yaxşı xatırlayır.

Heydər Əliyev 1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə gəldikdən sonra bu xaosun qarşısı alındı.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri o oldu ki, Azərbaycanın vətənpərvər oğullarını birləşdirən Yeni Azərbaycan Partiyasını yaratdı, hansı ki, Siz bu gün həmin partiyanın üzvü kimi ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirsiniz.

Bu gün dünyanın bir çox ölkələrində müharibələr gedir. Avropa iqtisadi böhran içərisindədir. Belə vəziyyətdə Azərbaycanımız nümunəvi bir dövlətdir.

Gənclərimiz dövlətimizin aparıcı qüvvəsidir. Hamınız müəyyən bir sahədə çalışırsınız. Ümummilli və dövlətçilik məsələsində isə hamınız birlikdəsiniz.

Açığını qeyd etməliyik ki, əldə etdiyimiz uğurlar dostlarımızı sevindirsə də düşmənlərimizi narahat edir. Bu uğurlara paxıllıq edirlər. Bütün dünyanın gözü qarşısında ermənilər Qarabağı və ətraf rayonları işğal etmişlər. Beynəlxalq təşkilatlar, aparıcı dövlətlər məsələnin sülh yolu ilə həll olunacağını desələr də ciddi addım atmırlar. Buna görə biz büdcəmizdə ordunun güclənməsi lazımi texnika və ləvazimatla təmin olunması üçün xeyli vəsait ayırmaq məcburiyyətindəyik.

Azərbaycan gəncləri ölkəmizin qüdrətini artırmaq üçün bir yumruq kimi birləşməlidirlər. Gənclik ayıq olmalıdır. Dövlətimizin, Prezidentimizin ətrafında sıx birləşməliyik.

Bu il Azərbaycanda çox mühüm beynəlxalq bir tədbir—birinci Avropa Olimpiya oyunları keçiriləcəkdir. Bu tədbirə 8000-dən artıq idmançı və qonaq gələcək. Bədxahlarımız bütün vasitələrlə bu tədbirə kölgə salmağa çalışırlar. Biz buna qətiyyən yol verə bilmərik.

Qarşıdan ölkəmizin Parlamentinə seçkilər gəlir. Biz bu tədbirə də hazır olmalıyıq. Bu kampaniyadan istifadə edib qarışıqlıq salmaq istəyənlərin arzuları ürəklərində qalmalıdır.

Azərbaycanın yüksək inkişafını Qəbələnin timsalında aydın görmək olar. Qəbələ artıq nəinki Azərbaycanda, dünyada tanınmış bir mədəniyyət və turizm mərkəzidir. Bu inkişafda siz gənclərin rolu çoxdur. Hamınıza təşəkkür edirəm.

Sabahın sahibi sizsiniz. Biz dünəni dəyişmişik. Daha gözəl gələcək qurmaq sizin öhdənizdədir.

(Əvvəli 2-ci səhifədə).

### Səbuhi Abdullayev,
### rayon icra hakimiyyətinin başçısı.

Eləcə də Zarağan kəndindəki şəhərciyin 11 binasının və şəhərin beşmərtəbəli yaşayış binalarının su-kanalizasiya sistemi, dam örtüyü və fasadı əsaslı təmir edilmişdir.

Bu il Qəbələ Peşə Məktəbinin yeni binasının, rayon mərkəzi xəstəxanasının, Dillər Universitetinin Qəbələ Filialının, Yengicə su anbarının, turizm akademiyasının, Qəbələ şəhərində hər biri 100 yerlik 2 uşaq bağçasının, qəzalı vəziyyətdə olduğuna görə sökülmüş, şəhər 1 nömrəli uşaq bağçasının yeni binasının və Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun tikintisinə başlanılması nəzərdə tutulmuşdur.

Biz bu gün böyük inam hissi ilə bəyan edirik ki, müstəqil Azərbaycanın gələcəyi ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün uğurla həyata keçirilən siyasi xəttin siz gənclər tərəfindən ardıcıl davam etdirilməsindən asılıdır. Fəxr edirik ki, partiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursunu uğurla həyata keçirən Azərbaycan gənclərinin böyük hamisi möhtərəm Prezidentimiz cənab İlham Əliyev kimi güclü və uzaqgörən lideri vardır.

Yeni Azərbaycan Partiyası yarandığı gündən dövlətçiliyimizin keşiyində durmuş, onun dönməzliyi naminə əzmlə mübarizə aparmışdır. Bu baxımdan partiyamızın liderinin mübarizliyi, qətiyyəti, polad iradəsi hər bir gənc partiya üzvü üçün örnəkdir, siyasi həyat məktəbidir.



**Hörmətli konfrans iştirakçıları!**

Azərbaycan idman ölkəsi kimi də yaxşı tanınır. Müstəqilliyimizi bərpa etdikdən sonra idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur.

Təkcə son yay olimpiya oyunlarında idmançılarımız 10 olimpiya medalı qazanmışdır. Bizim bir çox Avropa və Dünya çempionatlarının keçirilməsində də zəngin təcrübəmiz var və bu yarışların hamısı Avropa Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkə başçısı tərəfindən idmana göstərilən dövlət dəstəyinin və yaradılmış müasir idman infrastrukturunun parlaq nəticələridir ki, Avropa Olimpiya Komitəsinin qərarı ilə 2015-ci ilin 12-28 iyun tarixləri arasında 49 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançıların yarışacağı ilk Avropa Oyunlarının Bakı şəhərində keçirilməsi nəzərdə tutulmuşdur. Bu qərarı ölkə gəncləri kimi qəbələ gəncləri də böyük sevinclə qarşılamışlar. Çünki son illər Qəbələdə gənclərin asudə vaxtlarının təşkili, kütləvi idmanın inkişaf etdirilməsi və idman obyektlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüş, müasir standartlara uyğun idman infrastukturu yaradılmışdır.

Ölkəmizdə təşkil olunan bu möhtəşəm beynəlxalq idman oyunları gələcəkdə keçiriləcək digər beynəlxalq oyunlar üçün standartları müəyyən edəcək və stimul verəcəkdir.

**Hörmətli konfrans iştirakçıları!**

Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi həyatında həmişə olduğu kimi bu gün də fəal iştirak edir, Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin gündən-günə möhkəmlənməsi üçün fədakarlıq göstərir.

**Hörmətli siyasi həmfikirlər!**

Mən Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin IV konfransının iştirakçılarını bir daha salamlayır, konfransın işinə uğurlar arzulayıram.

Yaşasın dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası!

### Hikmət Babaoğlu,
### «Yeni Azərbaycan» qəzetinin baş redaktoru.

**Hörmətli gənclər.**

Sizi bu günkü ali məclisiniz münasibətilə təbrik edirəm.



Azərbaycanda gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu siyasət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndərin yaratdığı Yeni Azərbaycan partiyasının bu gün 640 min nəfər üzvü var ki, onlardan 250 mindən çoxu gənclərdir. YAP gəncləri ölkədə ən təşkil olunmuş, ən lokomotiv gücü olan bir dəstədir.

**Əziz gənclər.**

Bu gün dünya 20-30 il bundan öncəki dünya deyil. Müasir dünyada informasiya məkanı gündən-günə yeni vüsət alır, genişlənir. Bir sözlə dünyada informasiya mübarizəsi güclənir. Bizim gənclərimiz bu mübarizədə həmişə dövlətçiliyimizin mənafeyini qorumalıdırlar.

Azərbaycanda möhtərəm Prezidentimizin rəhbərliyi ilə gənclər siyasəti ilə bağlı ardıcıl olaraq 5 illik Dövlət Proqramları hazırlanır və həyata keçirilir. 2015-2020-ci illəri əhatə edən Dövlət Proqramında gənclərin intellektual, fiziki və mənəvi inkişafının təmin edilməsi əsas yer tutur.

Son illər dünya siyasətinə informasiya imperializmi, qloballaşma kimi terminlər gəlmişdir. Burada əsas məqsəd dünyanın aparıcı dövlətləri tərəfindən milli dövlətləri neytrallaşdırmaq, sıradan çıxarmaq, milli resursları ələ keçirməkdir. Buna görə də gənclərimizin intellektual səviyyəsi yüksək olmalıdır ki, dünya informasiya mübarizəsində uduzmasın, aldanmasın.

Gənclərin fiziki sağlamlığı da dövlətimizin əsas qayğısıdır. Artıq fəxrlə deyə bilərik ki, ölkəmiz idman ölkəsinə çevrilmişdir. Gənclərimizin mənəvi cəhətdən üstünlüyü çox vacib olan bir məsələdir. Bildiyiniz kimi milli gücün kəmiyyəti, ərazi, əhali, ordu, iqtisadiyyat və s. lə ölçülərsə, keyfiyyət mənəviyyatla ölçülür. Mənəviyyatsız kəmiyyətin heç bir əhəmiyyəti yoxdur.

Posmodernist işğal vasitəsi indi sosial şəbəkələrdir. Bu vasitə ilə insanların, xüsusən gənclərin şüuruna təsir edilir. İnsanların hadisələrə münasibəti informasiyalar əsasında formalaşır ki, biz informasiyalara düzgün qiymət verməyi bacarmalıyıq.

Sizin hamınızı sosial şəbəkələrdə fəal olmağa çağırıram. Bizim gücümüz Azərbaycan insanının, gənclərin yüksək mənəviyyatındadır. Bundan sonra da belə olacaqdır.

(Ardı 4-cü səhifədə).